**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# REGİONLARIN SOSİAL-İQTİSADİ İNKİŞAFI VƏ ƏHALİNİN HƏYAT SƏVİYYƏSİNİN YÜKSƏLDİLMƏSİ PROBLEMLƏRİ

(Naxçıvan Muxtar Respublikasının timsalında)

İxtisas: 5311.01 – "Müəssisələrin təşkili və idarə edilməsi"

Elm sahəsi: 53 – İqtisad elmləri

İddiaçı: **Mədinə Ərrəhman qızı Allahverdiyeva**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Naxçıvan-2025**

Dissertasiya işi Naxçıvan Dövlət Universitetinin "Beynəlxalq ticarət və menecment" kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** İqtisad elmləri doktoru, professor
**Asif İsmayıl oğlu Şirəliyev**

**Rəsmi opponentlər:** İqtisad elmləri doktoru, professor
**Ramiz Kamal oğlu İsgəndərov**

İqtisad üzrə fəlsəfə doktoru, dosent
**Sərvinaz Məmməd Həsən qızı Xanlarzadə**

İqtisad üzrə fəlsəfə doktoru, dosent
**Səbinə Sabir qızı Sadiqova**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Naxçıvan Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən BFD 4.24 Birdəfəlik Dissertasiya Şurası

Dissertasiya Şurasının sədri: İqtisad elmləri doktoru, professor
**Ağarza Ağahəsən oğlu Rüstəmov**

Dissertasiya Şurasının elmi katibi: İqtisad üzrə fəlsəfə doktoru, dosent
**Cavadxan Yusif oğlu Qasımov**

Elmi seminarın sədri: İqtisad elmləri doktoru, professor
**Vilayət İbrahim oğlu İsmayılov**

# GİRİŞ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Dövlət müstəqilliyinin bərpasından sonra ölkədə aparılan məqsədyönlü sosial-iqtisadi siyasət nəticəsində iqtisadi inkişafın təmin olunması, əhalinin həyat səviyyəsinin yüksəldilməsi və dünya təsərrüfat sisteminə inteqrasiya olunması istiqamətlərində müvafiq nailiyyətlər əldə olundu.

Müstəqil dövlət quruculuğu prosesində ölkədə aparılan iqtisadi islahatlar inkişafın Azərbaycan modelini yaratdı. Bu modelin gerçəkləşdirilməsinin rəsmi bazası kimi bir çox normativ-hüquqi aktlar, strateji inkişaf proqramları qəbul olundu. Bu nöqteyi nəzərdən "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" haqqında Azərbaycan Respublikası Prezidentinin 22 iyul 2022-ci il tarixli 3378 nömrəli Sərəncamı ölkədə və iqtisadi rayonlarda mövcud olan sosial-iqtisadi problemlərin həll edilməsi istiqamətində mühüm addım oldu. Sərəncamda ilk növbədə 7 istiqamətdə məsələlərin həlli ön plana çəkilmişdir. Bu sənədə milli prioritetlər üzrə nailiyyətlər və çağırışlar, 2030-cu ilə qədər qüdrətli dövlətin və yüksək rifaha malik olan cəmiyyətin formalaşdırılması, həmin illərdə sosial-iqtisadi inkişafı əhatə edən strategiyanın təsviri, illər üzrə əsas hədəf indikatorlar, nəzərdə tutulmuş inkişaf üzrə hədəflərin dayanıqlı inkişafdakı məqsədlərlə uyğunlaşdırılması, strategiyanın icrası əsasında monitorinqin aparılması və nəticələrin qiymətləndirilməsi, tədbirlər planı aid edilmişdir. Yuxarıda sadalanan yeddi bənddən irəli gələn məsələlərin icrası məqsədi ilə əvvəlki illərdə qəbul edilmiş silsiləli Dövlət Proqramlarının (2004-2008; 2009-2013; 2014-2018 və 2019-2023-cü illər) icrasını əks etdirən sənədlər bu gün də yeni qəbul edilmiş sosial-iqtisadi inkişaf Strategiyasının bəndləri üzrə həyata keçirilməsi istiqamətində işlərin icrasının vacibliyini şərtləndirir.

Həmin illəri əhatə edən iqtisadi məlumatların təhlili göstərir ki, Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının ilk mərhələsinin uğurlu icrası qısa zamanda ölkədə makroiqtisadi göstəricilərin artımına səbəb oldu.

Ölkədə aparılan sosial-iqtisadi siyasət digər iqtisadi rayonlar

kimi, Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişaf istiqamətlərinin də müəyyən edilməsi üçün geniş imkanlar açdı. Dövlət proqramlarından irəli gələn vəzifələrin həyata keçirilməsi, sosial-iqtisadi infrastrukturun yenidən qurulması, məşğulluğun təmin edilməsi, yeni iş yerlərinin açılması, əhalinin həyat səviyyəsinin yüksəldilməsi muxtar respublikada davamlı iqtisadi inkişafın təməlini qoydu.

Azərbaycan Respublikası Prezidentinin Fərmanlarına müvafiq olaraq 2004-cü ildən etibarən regionların sosial-iqtisadi inkişafını təmin etmək məqsədi ilə muxtar respublikada da bu inkişaf proqramına uyğun gələn Dövlət Proqramları qəbul edildi. Qəbul olunmuş bu proqramlar muxtar respublikanın sosial-iqtisadi inkişafında keyfiyyətcə yeni mərhələnin başlanğıcını qoymaqla iqtisadiyyatın diversifikasiyasına, tarazlı və dayanıqlı inkişafa uyğun gələn yeni iş yerlərinin yaradılmasına şərait yaratdı. Nəticədə, muxtar respublikanın rayonlarında iqtisadiyyata investisiya qoyuluşunun artımı hesabına xeyli sayda yeni müəssisələr yaradıldı, onlar keyfiyyətli istehsal-emal-nəqliyyat və sosial infrastruktur obyektləri ilə təmin olundu, sahibkarlıq mühiti yaxşılaşdı, məşğulluq təminatı yaxşılaşdığından əhalinin həyat səviyyəsi müstəqilliyin ilk illəri ilə müqayisədə xeyli yüksəlmiş oldu.

Dövlət Proqramlarının əsas məqsədi Azərbaycan Respublikasının iqtisadi rayonlarında, o cümlədən Naxçıvan Muxtar Respublikasının coğrafi ərazisinə daxil olan Naxçıvan şəhəri və yeddi rayonda mövcud potensialdan səmərəli istifadə edilməklə iqtisadiyyatın ayrı-ayrı sahələrinin inkişafına, istehsal müəssisələrinin fəaliyyətinin daha da genişləndirilməsinə, ixracyönümlü məhsul istehsalının stimullaşdırılmasına, sahibkarlığın inkişafı ilə əlaqəli əhalinin həyat səviyyəsinin yaxşılaşmasına, məşğulluğun səviyyəsinin, xüsusilə gənclərin faydalı əməklə məşğulluğunun artmasına və ölkə iqtisadiyyatının dinamik inkişafının təmin edilməsinə nail olmaqdan ibarətdir.

Müasir şəraitdə müstəqil Azərbaycan Respublikasında və Naxçıvan Muxtar Respublikasında iqtisadi və sosial inkişaf problemlərinin həlli regional siyasətin həyata keçirilməsini şərtləndirir. Belə ki, müstəqilliyin ilk illərindən etibarən respublikada

həyata keçirilən iqtisadi islahatların, demək olar ki, hamısı regional iqtisadiyyatın sosial-iqtisadi inkişafı ilə əlaqəlidir. Hazırda, islahtlar nəticəsində yaradılmış və onların fəaliyyətini təmin edən dövlət siyasəti əsas təsərrüfat fəaliyyətinə istiqamətlənməklə ölkənin və muxtar respublikanın regionlarının inkişafına yönəldilir. Qeyd edilən təsərrüfarlara öz iqtisadi problemlərini sərbəst həll etmək, regionlar-arası əlaqələri yaratmaq səlahiyyətləri verilmişdir.

Son illərdə Azərbaycanda, eləcədə, muxtar respublikada əsaslandırılmış regional siyasətin aparılması, regional iqtisadiyyatın dövlət tənzimlənməsi və idarə olunması məsələləri həm nəzəri-metodoloji, həm də praktiki baxımdan, xüsusilə aktual olaraq qalır. Bunun əsas səbəbi ölkəmizdə demokratik cəmiyyət quruculuğunun inkişafı və dünya iqtisadi sisteminə inteqrasiyanın güclənməsi ilə əlaqələndirilə bilər.

Regionların sosial-iqtisadi inkişafı və əhalinin həyat səviyyəsinin yüksəldilməsi ilə əlaqədar nəzəri-metodoloji məsələlərin respublikamızın şəraitinə uyğun tədqiq edilib öyrənilməsi, xüsusilə vacibdir. Bu, birinci növbədə ondan irəli gəlir ki, ölkə ərazisi özünün təbii-iqtisadi zənginliyi ilə fərqlənir. İkinci, ərazinin ayrı-ayrı inzibati və iqtisadi rayonları təbii imkanlarına, istehsalın ixtisaslaşmasına, nəqliyyat-coğrafi şəraitinə, əhalinin istehsal təcrübəsinə görə fərqlənir. Üçüncü isə respublikada xalq təsərrüfatının nisbətən mürəkkəb ərazi strukturunun formalaşması ilə əlaqədardır. Bütün bunları nəzərə alaraq, demək olar ki, səmərəli regional siyasətin yeridilməsi məqsədilə, sosial-iqtisadi inkişafın və əhalinin həyat səviyyəsinin yüksəldilməsi mexanizminin işlənib-hazırlanması və həyata keçirilməsi üçün yüksək ixtisaslı kadrlara böyük ehtiyac yaranmışdır.

Regionların sosial-iqtisadi inkişafına yönəlmiş Dövlət Proqramlarının icrası əhalinin həyat səviyyəsinin yüksəldilməsinə xidmət etməklə, yeni kompleks araşdırmalar aparmaq və perspektivli parametrləri müəyyənləşdirib əsaslandırılmaq zərurəti yaratmışdır. Qoyulmuş problemə bu baxımdan yanaşdıqda, gələcəkdə ölkədə regionların sosial-iqisadi inkişafının gücləndirilməsi və əhalinin rifah halının yaxşılaşdırılmasına təsiri nəzərə alınmaqla müvafiq istiqamətlər üzrə aparılan tədqiqat istər praktiki, istərsə də nəzəri

cəhətdən aktuallıq kəsb edir.

Araşdırmalar göstərir ki, Naxçıvan MR-nın timsalında regional inkişafın həyat səviyyəsinin yaxşılaşdırılmasına təsiri məsələləri kifayət səviyyədə tədqiq edilməmişdir. Belə ki, regional inkişaf və həyat səviyyəsi arasındakı asılılığı əks etdirən elmi-tədqiqat araşdırmaları daha çox Naxçıvan MR-in kənd əhalisinin iqtisadi inkişafı nümunəsində aparılmışdır. Ona görə də müasir dövrdə regionların sosial-iqtisadi inkişaf səviyyələrindəki fərqlərdən irəli gələn həyat səviyyələrindəki disproporsionallıq Naxçıvan MR-nın sosial-iqtisadi inkişafını əks etdirən əhalinin həyat səviyyəsinin yüksəldilməsi kontekstindən öyrənilməsinə zərurəti yaratmışdır.

Muxtar respublikada iqtisadiyyatın strukturunun təkmilləşdirilməsi və strateji yol xəritələri çərçivəsində sosial-iqtisadi inkişafı stimullaşdıran və əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması istiqamətində dövlət dəstəyi və dövlət tənzimlənməsi mexanizmlərinin böyük əhəmiyyəti vardır. Bu baxımdan, ölkədə, o cümlədən onun tərkib hissəsi olan muxtar respublikada qeyri-neft sektorunun inkişafının qanunuvericilik bazasının yüksək səviyyədə təkmilləşdirilməsi və gücləndirilməsi tələb olunur. Eyni zamanda, bu istiqamətlərdə səmərəli nəticələrin əldə olunması üçün geniş və hərtərəfli tədbirlərin görülməsi, normativlərin və qaydaların yenidən işlənməsi və təkmilləşdirilməsi vacibdir.

Ölkəmizdə qeyri-neft sektorunun inkişafında investisiya mühitinin rolu önəmli xarakter daşıyır. Məhz, investisiyaların qorunması, investisiya fəaliyyətinin stimullaşdırılması ilə bağlı qanunvericilik bazasının vaxtında hazırlanması və qəbul olunması həm ölkəmizdə, həm də muxtar respublikada iqtisadi inkişaf proseslərinin dinamikliyinə müsbət təsir göstərməkdədir. İqtisadiyyatın müxtəlif sahələrində davamlı və məqsədli islahatların aparılması, bir sıra istiqamətlərdə ölkədə qanunvericilik bazasını formalaşdıran qanunların qəbul edilməsi, qeyri-neft sektorunun müxtəlif sahələrinin tənzimlənməsi istiqamətində hüquqi aktların qəbulu gələcəkdə muxtar respublikanın rayonlarında sosial-iqtisadi inkişafın təmin olunmasına və burada məskunlaşmış əhalinin həyat səviyyəsinin yaxşılaşdırılmasına xüsusilə əhəmiyyətli təsir göstərə bilər.

Ölkəmizdə qeyri-neft sektorunun, kiçik və orta biznesin (KOB)

inkişafına yönəldilmiş konkret və kompleks tədbirlər proqramının hazırlanması və reallaşdırılması hökumətin diqqət mərkəzində olmuş və olmaqdadır. Bu istiqamətdə mövcud vəziyyət kiçik və orta sahibkarlığın (KOS), o cümlədən rəqabət qabiliyyətli sahibkarlıq mühitinin formalaşması, istehsal istiqamətli sahibkarlığın inkişaf etdirilməsi, biznes inkubatorların, eləcə də innovativ sahibkarlığın yaradılması və dövlət tərəfindən dəstəklənməsi muxtar respublikada sosial-iqtisadi inkişafa təsir etməkdədir.

Naxçıvan MR-da regionların sosial-iqtisadi inkişaf strategiyasının həyata keçirilməsinin araşdırılmasında məqsəd rayonlarda müxtəlif istiqamətli prioritet sahələri müəyyən etməklə bu sahədə olan problemlərin aradan qaldırılması üzrə təklif və tövsiyələr irəli sürmək, həmçinin region əhalisinin həyat səviyyəsinin yaxşılaşdırılmasına təsir göstərən amilləri müəyyənləşdirmək və onların təsir mexanizmlərini geniş araşdırmaqdan ibarətdir.

Tədqiqat obyektinin kifayət qədər öyrənilməməsini nəzərə alaraq, belə qənaətə gəlmək olar ki, həyat səviyyəsinin yüksəldilməsi istiqamətində qarşıya çıxan  iqtisadi problemlərin nəzəri və praktiki cəhətdən tədqiqi olduqca aktuallıq kəsb edir.

Tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, Azərbaycanda, o cümlədən muxtar respublikada dayanıqlı sosial-iqtisadi inkişafın təmin olunması, region əhalisinin həyat səviyyəsinin yaxşılaşdırılması dövlət və hökumət orqanlarının daim diqqət mərkəzində saxlanılır və saxlanılacaqdır. Həm iqtisadi, həm də dövlət və hökumət maraqları baxımdan yanaşıldıqda tədqiqatın mövzusunun aktuallığı və əhəmiyyətli daha açıq aydın olur.

Qeyd edək ki, regionların sosial-iqtisadi inkişafı və əhalinin həyat səviyyəsinin yüksəldilməsi problemi daim iqtisadçı alimlərin diqqət mərkəzində olmuşdur.

Ötən əsrin ikinci yarısından sonra Azərbaycan iqtisad elmi mühitində regional inkişafın ayrı-ayrı problemləri üzrə aparılan araşdırma və elmi-tədqiqat işləri diqqəti cəlb edir. Bu istiqamətdə Ə.X.Nuriyev[1],

---

[1] Nuriyev, Ə.X. Azərbaycanda regional inkişafın yekunları, gələcək hədəflər və prioritetlər // Ə.X. Nuriyev. Xalq qəzeti. –2019. –13 aprel. –№ 79. –s. 8.

V.İ.İsmayılov[2], V.Ə. Qasımlı[3], C.Y.Qasımov[4], C.B. Quliyev[5], E.M.Hacızadə[6], A.İ.Şirəliyev[7], A.Ş.Şəkərəliyev[8], V.Ə.Rüstəmov[9] və başqaları tədqiqat aparmışlar. Bu baxımdan AMEA-nın müxbir üzvü, prof. Ə.X.Nuriyevin, V.İ. İsmayılov və s. tədqiqatçıların işlərini xüsusilə əhəmiyyətli hesab etmək olar.

Regional iqtisadiyyatın inkişafı ilə əlaqədar tədqiqatların aparılmasına xarici ölkə alimlərinin əsərlərində geniş yer verilmişdir. Problemin ayrı-ayrı aspektləri iqtisadçı alimlər S.S.Şatalin, H.İ.Morozova[10], N.N.Nekrasov[11], D.M.Kerimova[12], S.P. Reys[13],

---

[2]İsmayılov, V.İ. Beynəlxalq inteqral indiqatorları əsasında əhalinin həyat səviyyəsinin qiymətləndirilməsi // –Bakı: AMEA Xəbərləri. İqtisadiyyat seriyası. Bakı. –2020, №3, –s.106-116.

[3] Qasımlı, V.Ə. Rəqəmsal iqtisadiyyat / V.Ə. Qasımlı. –Bakı: Azprin nəşriyyatı, -2023, -262 s.

[4] Qasımov, C.Y. Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı regional dövlət proqramlarının icrası müstəvisində (2004-2018-ci illər) / C.Y. Qasımov. Naxçıvan, -2020. -320 s.

[5] . Rəqabət qabiliyyətli iqtisadiyyatda həyat səviyyəsi və onun keyfiyyətcə yaxşılaşdırılmasının sosial-iqtisadi problemləri \Quliyev, C.B, Rzayeva, M.H, Abdullayeva, R.S, Allahverdiyeva, –Bakı: Avropa, –2014, –198 s

[6] Hacızadə, E.M. Neft-qaz sektorunun inkişafının iqtisadi artıma təsirinin qiymətləndirilməsi // Azərbaycanın vergi jurnalı. – Bak; –2012, – № 2, -s. 49-86.

[7] Şirəliyev, A.İ., Mahmudov, C İ. İqtisadi və sosial tərəqqi / A.İ. Şirəliyev və s. Monoqrafiya. –Naxçıvan: İdeya, –2012, -146 s.

[8] Şəkərəliyev, A. Ş., Şəkərəliyev, Q. Azərbaycan iqtisadiyyatı: reallıqlar və perspektivlər /–. Bakı: –Turxan NPB, –2016, –536 s.

[9] Rüstəmov V.Ə. Qloballaşma şəraitində regional inkişafin paradiqması // Kənd təsərrüfatının iqtisadiyyatı –Bak;. –2020, – №1 (31), -s.132-146

[10] Мрозова, Н.И. Развитие территориальных социально-экономических систем и его оценка по критерию качества жизни населения. Автореферат дисс.док.экон.наук. – Волгоград. – 2012, -52 с.

[11] Некросов, Н.Н. Региональная экономика. Теория, проблемы, методы / – Москва –1978. – с. 29-80.

[12] Керимова, Д.М. //. Методология и критерии оценки бедности: зарубежная и отечественная практика – Москва. –2021, -№1(12), с.5-11

[13] Реус, С.П. Влияние научно-технического прогресса на формирование экономического роста // Креативная экономика. – Москва. –2020, №2, -с.159-174.

Ş. Şi[14], H.C.Quselçev[15], A.B.Dajiyeva[16] və s. tərəfindən geniş tədqiq edilmiş və onunla əlaqəli və elmi cəhətdən əsaslandırılmış bir çox dəyərli nəticələr əldə edilmişdir.

Regional inkişafın idarə olunması problemləri müxtəlif tədqiqatçılar tərəfindən kifayət qədər araşdırılsa da, son illərdə nəzəri məsələlərin öyrənilməsinə maraq xeyli güclənmişdir.

Aparılan tədqiqat işlərinin nəzəri və praktiki əhəmiyyətini azaltmadan, qeyd etmək lazımdır ki, indiyə qədər regionların sosial iqtisadi inkişafı və əhalinin həyat səviyyəsinin yüksəldilməsi ayrı-ayrı istiqamətlərdə öyrənilsə də, Naxçıvan MR-nın timsalında bu problemlərin həllinə sistemli və kompleks şəkildə yanaşılmamışdır.

Fikirimizcə, yuxarıda qeyd edilən aspektlər nəzərə alınmaqla mövzunun bu istiqamətin tədqiqinə həsr edilməsini əhəmiyyətli hesab etmək olar.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqat işinin obyektini Naxçıvan Muxtar Respublikası regionları timsalında onların sosial-iqtisadi inkişafı və əhalinin həyat səviyyəsinin yüksəldilməsi problemləri təşkil edir.

Regional sosial-iqtisadi inkişaf və əhalinin həyat səviyyəsinin yüksəldilməsi arasındakı münasibətlər tədqiqatın predmetini təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi Naxçıvan Muxtar Respublikasında regional inkişafın təmin olunması və buna müvafiq həyat səviyyəsinin yüksəldilməsi istiqamətində mövcud problemləri aşkara çıxarmaq, yerli şərait və qabaqcıl xarici təcrübə nəzərə alınaraq, yeni metodiki yanaşmalar əsasında regional inkişafın idarə edilməsi mexanizminin təkmilləşdirilməsi istiqamətində elmi cəhətdən əsaslandırılmış təklif və tövsiyyələr

---

[14] Ши, Ш. // Индекс человеческого развития Китая и экономический рост: ретроспективный анализ и глобальная перспектива – Москва. – 2024, – №20 (1), -с.76-91.

[15] Гусельцев, Н.С. Занятость личности в современном трансформирующемся обществе // Вестник РГГУ. – 2020. – №02, -с.133-150.

[16] Дажиева, А.Б. Экспортный потенциал как системообразующий элемент экономического развития страны / Журнал вестник магистратуры. – Москва. – 2022, – №5-1 (128), -с. 59-64.

işləyib hazırlamaqdır.

Qarşıya qoyulan məqsədə nail olmaq üçün tədqiqat işində aşağıdakı vəzifələr nəzərdə tutulmuş və ardıcıllıqla yerinə yetirilmişdir:

-regionların sosial-iqtisadi inkişafının nəzəri-metodoloji məsələlərinə fərqli yanaşmalar əsasında regional inkişafın mahiyyəti və xüsusiyyətlərinin sistemləşdirilməsi;

-bazar münasibətləri şəraitində regionların sosial-iqtisadi inkişafının formalaşmasına təsir edən amillərin qruplaşdırılması;

- muxtar respublika rayonlarında əhalinin həyat səviyyəsinin qiymətləndirilməsi və onun yüksəldilməsinin sosial-iqtisadi inkişafla bağlı xüsusiyyətlərinin aşkar edilməsi;

-ümumi daxili məhsulun sərbəst dəyişən amillərdən asılılığının ekonometrik modelinin işlənilməsi və modelin avtokorelyasiyaya meyliliyini əks etdirən hipotezin təhlil edilməsi və geniş approksimasiyasının verilməsi;

-muxtar respublika regionlarının sosial-iqtisadi inkişafının prioritet istiqamətlərinin müəyyənləşdirilməsi və onların investisiya təminatına dair təklif və tövsiyələrin verilməsi;

-muxtar respublika əhalisinin həyat səviyyəsinin yüksəldilməsinin təkmilləşdirilməsi istiqamətində təkliflərin hazırlanması.

**Tədqiqatın metodları.** Tədqiqat işi sistemli təhlil, analiz-sintez, iqtisadi statistika, məntiqi yanaşma, elmi ədəbiyyatın analizi və sintezi, ümumiləşdirmə və sistemləşdirmə və s. metodlarından istifadə etməklə yerinə yetirilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

- Naxçıvan MR-nın sosial-iqtisadi inkişafının nəzəri aspektlərinə fərqli yanaşmalar regional inkişafın xüsusiyyətlərinin sistemləşdirilməsini şərtləndirir;

- sosial-iqtisadi inkişafı təmin edən xarici ölkələrin modellərinin xüsusiyyətləri əsasında regional inkişafı formalaşdıran amillərin qruplaşdırılması zərurəti yaranır;

- “Vizual Studio Code” proqramının tətbiqi ilə ÜDM-in fərqli dəyişənlərdən asılığı modeli, korrelyasiya tənliyindən proqnoz məqsədi üçün istifadə edilməsi şərtləri müəyyən edilmişdir;

- muxtar respublikada regionların sosial-iqtisadi inkişafının prioritetlərinin müəyyənləşdirilməsi onun investisiya təminatı zərurətini yaradır;

- regionda əhalinin həyat səviyyəsinin yüksəldilməsinə təkan verən xarakterik problemlər müəyyən edilmiş və perspektiv dövr üçün sosial-iqtisadi inkişafı təmin edən təkliflər hazırlanmışdır;

- muxtar respublika əhalisinin həyat səviyyəsinin yüksəldilməsinə əsaslanmış təklif və tövsiyələr verilmişdir.

**Tədqiqatın elmi yeniliyi** aşağıdakılardan ibarətdir:

- Naxçıvan MR-nın rayonlarının sosial-iqtisadi inkişafının və əhalinin həyat səviyyələrinin yüksəldilməsi istiqamətlərinə fərqli yanaşmalar sistemləşdirilmişdir.

- Regionların sosial-iqtisadi inkişafının nəzəri-metodoloji məsələlərinin tədqiqi, BMT, İsveç və Fransa modellərinin tədqiqi əsasında regional inkişafın formalaşmasına təsir edən amillər qruplaşdırılmışdır.

- Mövcud şərait və amillər nöqteyi nəzərindən muxtar respublikanın sosial-iqtisadi potensialı və regionlarda əhalinin həyat səviyyəsi qiymətləndirilmiş və onun inkişafının sosial-iqtisadi inkişafla bağlı xüsusiyyətləri aşkarlanmışdır.

- İstehsalın kompleks inkişaf göstəriciləri və sosial sferanın mövcud durumunun təhlili və qiymətləndirilməsi kontekstində sosial-iqtisadi inkişafın prioritet sahələri aşkarlanmış, onların investisiya təminatına dair təkliflər hazırlanmışdır.

- Naxçıvan MR-nın ÜDM-nun çoxsaylı sərbəst dəyişənlərdən asılılıq modeli işlənilməklə geniş approksimasiyası verilmişdir.

- Muxtar respublikanın rayonlarında sosial-iqtisadi inkişafa və əhalinin həyat səviyyəsinin yüksəldilməsinə təsir edən xarakterik problemlər müəyyən edilmiş və perspektiv dövr üçün regionun sosial-iqtisadi inkişaf istiqamətlərinə dair təkliflər hazırlanmışdır.

- İlk dəfə olaraq muxtar respublika rayonlarının sosial-iqtisadi inkişafı və əhalinin həyat səviyyəsi və həyat keyfiyyətinin yüksəldilməsi məsələlərinə kompleks baxılmış və onun təkmilləşdirilməsi üçün təkliflər verilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiyada irəli sürülən müddəalar Azərbaycan iqtisad elmini nəzəri cəhətdən

zənginləşdirir. Naxçıvan Muxtar Respublikası timsalında regionların sosial-iqtisadi inkişafı və əhalinin həyat səviyyəsinin yüksəldilməsi problemlərinin təhlili və onların təkmilləşdirilməsi istiqamətində ümumiləşdirilmiş tövsiyə və təkliflər regionların inkişafı və əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması üzrə dövlət proqramlarının hazırlanması zamanı istifadə edilə bilər. Dissertasiyanın əsas müddəaları və nəticələrindən "Sosial-iqtisadi sahələrin iqtisadiyyatı", "Turizmin iqtisadiyyatı" və s. fənlərin tədris edilməsində, həmçinin elmi araşdırılmalarda istifadə oluna bilər.

**Tədqiqat işinin aprobasiyası və nəticələrin tədqiqi.** Dissertasiya işinin nəticələri elmi konfranslarda, beynəlxalq və ölkədaxili simpoziumlarda məruzə edilmiş, elmi-nəzəri seminarlarda müzakirə olunmuşdur. Dissertasiya işinin bütün bölmələrini əhatə edən 40-dan çox məqalə və tezis dərc edilmişdir. Araşdırmalarda əldə edilmiş nəticələr Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinə təqdim olunmuş və 08. 08. 2018-ci il № 01/335 qərarla tətbiq üçün qəbul edilməsinə arayış verilmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilat.** Naxçıvan Dövlət Univrsiteti.

**Dissertasiya işin quruluşu və həcmi.** Dissertasiya işi "Giriş"dən, üç fəsildən, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Disertasiya işi ümumilikdə 133 səhifə 231.224 işarədən ibarətdir. "Giriş" 6 səhifə-16.379 işarədən, həmçinin I fəsil 38 səhifə- 74.570 işarədən, II fəsil 42 səhifə- 71.655 işarədən, III fəsil 26 səhifə- 45.178 işarədən, nəticə 3 səhifə-5442 işarədən ibarətdir.

## TƏDQİQAT İŞİNİN ƏSAS MƏZMUNU

Dissertasiya işinin **girişində** mövzunun aktuallığı, öyrənilmə səviyyəsi, tədqiqat obyekti və predmeti, nəzəri və metodoloji əsasları, işin elmi yeniliyi, tədqiqatın nəzəri və praktiki əhəmiyyəti, işin aprobasiyası və nəticələrinin tətbiqi, dissertasiyanın quruluşu və həcmi verilir.

Dissertasiyanın **"Regional inkişafın və əhalinin həyat səviyyəsinin yüksəldilməsinin nəzəri-metodoloji məsələləri" adlanan I fəslində** regional inkişafın mahiyyəti və əsas xüsusiyyətləri,

bazar iqtisadiyyatı şəraitində regionların sosial-iqtisadi inkişafının formalaşmasına təsir edən amillər, regionların sosial-iqtisadi inkişafının əhalinin həyat səviyyəsinin yüksəlməsinə təsiri məsələləri tədqiqata cəlb olunur.

Regional inkişafın mahiyyəti və xüsusiyyətləri izah olunaraq göstərilir ki, "Region" anlayışı latın sözü olub (rego - "nahiyyə", "ölkə", "vilayət") vahidliliyi və ona sıx bağlı olan müəyyən bir ərazini ifadə edir. *N.N.Nekrasov regional iqtisadiyyat elmini çox geniş şəkildə qiymətləndirən tədqiqatçılardan biri olmuşdur. Tədqiqatçının fikirincə "Regional iqtisadiyyat ölkənin regional sistemdə, hər bir regionda məhsuldar qüvvələrin formalaşması və iqtisadi, sosial faktorlarını və onların təzahürlərini öyrənir. Məhsuldar qüvvələrin səmərəli yerləşməsi regional iqtisadiyyatın əsası, mühüm tərkib hissəsidi*[17].

Regional inkişafın mahiyyəti bilavasitə dövlətin sosial-iqtisadi siyasətinin tərkib hissəsi olmaqla, məqsədi regionların mövcud potensialından səmərəli istifadə etməklə qeyri-neft sektorlarının inkişafına, ixrac yönümlü məhsul istehsalının stimullaşdırılmasına, yerli sahibkarlığın inkişafına, məşğulluğun təmin edilməsinə və s. xidmət etməkdən ibarətdir. Regional inkişafın mahiyyətindən irəli gələn başlıca xüsusiyyəti region əhalisinin gəlirinin artırılması, iş və məişət şəraitinin yaxşılaşdırılması, iş vaxtından səmərəli istifadə edilməsi, mədəni və təhsil səviyyəsinin yüksəldilməsi, sağlamlıq problemlərinin həlli kimi məsələlərin həyata keçirilməsinə şərait yaratmaqdır. Regionlar müxtəlif coğrafi əraziyə malik olduğundan və əhali ənənəvi sahələrdə əvvəldən ixtisaslaşdığından sosial-iqtisadi inkişaf proqramları hazırlanarkən bunların nəzərə alınması vacibdir.

Regional inkişafa nail olmaq üçün aşağıdakıların həlli vacibdir:
- regionların sosial iqtisadi inkişafı və əhalinin həyat səviyyəsinin yüksəldilməsi məqsədilə prioritet sahələrin və inkişaf istiqamətlərinin düzgün müəyyənləşdirilməsi vacib şərtlərdəndir;

-ölkə və regionlarda sosial-iqtisadi inkişaf proqramları

---

[17] Некросов, Н.Н. Региональная экономика. Теория, проблемы, методы/ Н.Н.Некрасов. Книга. М.: Экономика, -1978. – с. 29-80

hazırlanarkən ədalətlilik və səmərəlilik prinsipləri gözlənilməli, nisbətən prioritet sahələrin inkişafının regionlarda prioritet təsərrüfat sahələrinin və infrastrukturun inkişafı ilə düzgün əlaqələndirilməsi nəzərə alınmalıdır;

- sosial iqtisadi inkişafın təmin edilməsinin ədalətlilik prinsipi üzərində qurulması üçün regionda əhalinin maddi rifahı və həyat səviyyəsi, ÜDM-in artımı və adambaşına düşən səviyyəsi, istehsal və istehlak arasında bölgüsü, əmək haqqının, ictimai istehlak fondlarının gəlirlərinin vəziyyəti və s. öyrənilməlidir.

Araşdırmalar göstərir ki, Naxçıvan Muxtar Respublukasının sosial-iqtisadi inkişafının formalaşmasında təbii və coğrafi mühit, demoqrafik, təsərrüfat sahələrinin yerləşdirilməsi və həyata keçirilən iqtisadi siyasət mühüm rol oynayır.Tədqiqat zamanı müəyyən edildi ki, Naxçıvan Muxtar Respublikası ərazisində müxtəlif iqlim tiplərinin mövcudluğu təbii zonaların müxtəlifliyinə səbəb olmaqla, iqtisadi inkişafa təkan verən zəngin təbii ehtiyatların mövcudluğu sosial-iqtisadi inkişafın formalaşmasına şərait yaratmışdır. Naxçıvan MR-nın ərazisində yerləşən çay və kəhrizlər kənd təsərrüfatının inkişafı üçün xüsusi əhəmiyyət kəsb edir, çaylar enerji və suvarma mənbəyi kimi sosial-iqtisadi inkişafın və əhalinin həyat səviyyəsinin yüksəlməsinə xidmət edir.

Regionların sosial-iqtisadi inkişafının formalaşmasına təsir edən amillərdən biri kimi əhali məşğulluğudur. Məşğulluq ictimai məhsulun təkrar istehsalı prosesində bilavasitə və dolayı yolla iştirak edərək, insanlararası münasibətləri təcəssüm etdirir. Bu münasibətlər özünü əməyin nəticələrinin mənimsənilməsində, istehlakda biruzə verir və məşğul əhalinin həyat səviyyəsini müəyyənləşdirir. Odur ki, muxtar respublikada məşğulluq, əhalinin mobilliyi daim diqqət mərkəzində saxlanılır.

Sosial-iqtisadi inkişafa və əhalinin həyat səviyyəsinin formalaşmasına təsir edən əsas amillərdən biri də demoqrafik proseslərdir. Demoqrafik və sosial-iqtisadi proseslər bir-birilə üzvü bağlıdır. İqtisadi və demoqrafik proseslər dinamik səciyyə daşıyır və bir çox sosial-iqtisadi amillərlə şərtləşir. Demoqrafik siyasətdə ailə-nigah, doğum, ölüm, təbii artım, insanların sağlamlığının mühafizəsi, əhalinin məşğulluq və həyat səviyyəsinin yüksəldilməsi, miqrasiyanın

tənzimlənməsi və s. əsas yer tutur.

Müəllifin fikrincə, demoqrafik proseslərin nizamlanması məsələlərinin həllinə müasir tələblər baxımından deyil, gələcəkdə inkişafın tələb və məqsədləri baxımdan yanaşılması lazımdır.

Muxtar respublika regionlarının sosial-iqtisadi inkişafının formalaşmasına hasilat, mədən və emal sənayesinin, tikinti və inşaat müəssisələrinin yaradılması, kənd təsərrüfatı məhsullarının istehsalı, sahibkarlıq fəaliyyətinin dəstəklənməsi və s. kimi sahələrin yaradılması ciddi təsir göstərmişdir.

Qeyd edir ki, füsunkar təbiətə malik olan muxtar respublikada geniş turizm potensialı olmaqla turizm inkişafı üçün şərait vardır. Mövcud potensial imkanlardan istifadə etməklə yaradılan sosial-iqtisadi inkişaf muxtar respublika əhalisinin həyat səviyyəsinin yüksəlməsinə ciddi təsir göstərmişdir.

Fikrimizcə, gələcəkdə regionların sosial-iqtisadi inkişaf proqramları hazırlanarkən aşağıdakıların nəzərdə saxlanılması məqsədəuyğundur: -regionlarda yoxsuluğun azaldılması məqsədilə yerli xammala əsaslanan istehsal sahələri yaradılmaqla əlavə iş yerlərinin açılması üçün sahibkarların motivasiya edilməsi; -əhalini maddi nemət və xidmətlərlə təmin etmək, onların istehlak və tələbatının səmərəli şəkildə ödənilməsini diqqətdə saxlamalı; -vətəndaşlar üçün minimum yaşayış səviyyəsi standartları hazırlamalı; -beynəlxalq səviyyəli innovativ texnologiyanı mənimsəyən, yüksək ixtisaslı kadr hazırlığına başlamalı; -kənd məktəblərində peşə-texniki yönümlü keyfiyyətli tədris kursları yaratmalı, şagirdləri bu istiqamətdə motivasiya etməli; -elm, təhsil və səhiyyə sistemlərinə ayrılan vəsaitin ÜDM-də payını artırmaqla, müasir innovasiya texnologiyalarının bu sahələrə daha geniş tətbiqinə nail olmalı; -tibbi sığortanın geniş miqyasda tətbiqini nəzarətdə saxlamalı; -məşğulluq sahəsində gender bərabərliyini təmin etməklə, əmək bazarında qadınların rəqabət qabiliyyətini artırmalı.

Dissertasiyanın **"Naxçıvan MR-da sosial-iqtisadi inkişafın mövcud vəziyyətinin təhlili və qiymətləndirilməsi" adlanan II fəslində** ölkənin sosial-iqtisadi inkişafında muxtar respublikanın rolu, muxtar respublikada istehsal və sosial sferanın mövcud vəziyyəti və regionlarda həyat səviyyəsinin qiymətləndirilməsi kimi məsələlər

tədqiq olunur. Göstərilir ki, regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramlarının icrası muxtar respublikada da yeni müəssisələrin, iş yerlərinin yaranmasına və iri miqyaslı infrastruktur layihələrinin həyata keçrilməsinə zəmin yaratmış, sənaye və kənd təsərrüfatı məhsullarının istehsal həcmi əhəmiyyətli dərəcədə artmışdır.

Azərbaycan Respublikasında iqtisadiyyatın sahələrində məhsul buraxılışının müqayisəli təhlili göstərir ki, Bakı şəhərindən sonra Naxçıvan MR ikinci sırada yer alır. Belə ki, yalnız 2023-cü il istisna olmaqla 2010-2022-ci illərdə muxtar respublikada məhsul buraxılışının həcminin artıma malik olması dinamik inkişafın mövcudluğuna dəlalət edir. Onu da qeyd edək ki, Bakı şəhəri üzrə məhsul həcminə nisbətdə muxtar respublikada məhsul istehsalının həcmi 2010-cu ildə 24,08 dəfə, 2022-ci ildə isə 32,5 dəfə çox olmasına baxmayaraq bu regionun ölkə iqtisadiyyatının inkişafında rolu danılmazdır. Muxtar respublikada 2019-2022-ci illər ərzində iqtisadi rayonlar və inzibati ərazi vahidləri üzrə iqtisadi sahələrdə məhsul buraxılışına nəzər salsaq, görərik ki, 2018-ci ildə 3527,3845 milyon manatlıq məhsul istehsal olunmuşdursa, bu rəqəm 2022-cı ildə 3258,3262 milyon manat olmuşdur, yəni 269,0583 milyon manat və ya 7,63% azalma olmuşdur. Müqayisə dövründə ən çox məhsul buraxılışı 2020-ci ildə olmaqla 3687, 845 milyon manat dəyərində olmuşdur ki, bu da 2019-cu ilin rəqəmlərini 160,4605 milyon manat və ya 4,55 faiz üstələmişdir. Muxtar respublikanın iqtisadi inkişafda mühüm rola malik olmasını regionda Dövlət Proqramlarının icrası nəticəsində yeni müəssisələrin açılaraq istifadəyə verilməsi, məşğulluq səviyyəsinin yüksəldilməsi və əhalinin həyat səviyyəsinin getdikcə yaxşılaşdırılması ilə əsaslandırmaq olar. Muxtar respublikada aparılan regionların sosial-iqtisadi inkişafının tarazlaşdırılması siyasəti bütün bölgələrdə sənaye məhsullarının istehsal həcmini artırmışdır. Muxtar respublikanın iqtisadi həyatında kənd təsərrüfatı məhsullarının istehsalı önəmli yer tutur. Tədqiqat zamanı müəyyən edildi ki, bu sahəyə göstərilən diqqət və qayğı nəticəsində kənd təsərrüfatı məhsullarının istehsalı da bütün bölgələr üzrə artmış, əhalinin pul gəlirlərinin artımı hesabına regionlarda həyat səviyyəsi əvvəlki illərə nisbətən xeyli yüksəlmişdir (qrafik 1).




**Qrafik 1. Azərbaycan Respublikası və bəzi iqtisadi rayonlar üzrə kənd təsərrüfatı məhsulunun həcmi**

Şərur rayonu (76,8951 milyon manat), nəqliyyat və anbar sahəsi üzrə Naxçıvan şəhəri (30,2911 milyon manat) və Şərur rayonu (5,5878 milyon manat), informasiya və rabitə üzrə Naxçıvan şəhəri (31,1614 milyon manat) və Şərur rayonu (7,9558 milyon manat), ticarət, nəqliyyat vasitələrinin təmiri üzrə Naxçıvan şəhəri (250,3161 milyon manat) və Şərur rayonu (129,9974 milyon manat) malikdir[18]. Təhlil nəticəsində belə bir nəticəyə gələ bilərik ki, muxtar respublikanın ölkə üzrə məhsul istehsalında rolunun artmasında Naxçıvan çəhəri və Babək rayonunun payı danılmazdır. Odur ki, xüsusi çəkisi çox olan rayonlarla bərabər digər rayonlarda da ümumi məhsul istehsalı həcminin artırılmasına nail olmaq məqsədi ilə yeni müəssislərin açılması istiqamətində muxtar respublika rəhbərliyi xüsusi tədbirlər planı işləyib hazırlamalı və onun icrasını həyata keçirməlidir.İR-a daxil olan rayonlar içərisində ən yüksək göstəriciyə görə ilk beşlikdə Sədərək rayonun (668,2 manat), Naxçıvan şəhəri (630,2 manat), Kəngərli rayonu (621,3 manat), Babək rayonu (597,0 manat) və Şahbuz rayonu (587,3 manat) yer almışdır. Digər bir göstərici olan əsas iqtisadi sahələr üzrə ümumi məhsul buraxılışını əks etdirən məlumatların təhlili göstərir ki, burada Naxçıvan şəhəri (muxtar respublika üzrə ümumi məhsulun həcmində 52,4% və ya 1707,16

[18] AR DSK. Azərbaycanın milli hesabları. Statistik məcmuə. Bakı, -2023, -133 s.

milyard manat) ilk pillədə, son pillədə isə Şahbuz rayonu (3,9% və ya 126,752 milyard manat)  yer alır. Qeyd edək ki, muxtar respublikanın ÜDM-də sənayedə məhsul buraxılışının həcmində ilk üçlükdə Naxçıvan şəhəri (72,8% və ya 764.0355 milyon manat), Babək rayonu (12,3% və ya 764.0355 milyon manat) və Şərur rayonu (9,4% və ya 98.405 milyon manat) durur. Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıqda ilk sırada Şərur rayonu (31,0% və ya 182.914 milyon manat) və son sırada Sədərək rayonu (3,8% və ya 22.5506 milyon manat), tikintidə ilk sırada Naxçıvan şəhəri (65,5% və ya 614.8901




**Qrafik 2. Naxçıvan MR-da əhalinin həyat səviyyəsini xarakterizə edən göstəricilər.**

milyon manat) və son sırada Sədərək rayonu (2,3% və ya 21.9468 milyon manat), nəqliyyat və anbar təsərrüfatında ilk sırada Naxçıvan şəhəri (51,6% və ya 30.2911 milyon manat) və son sırada Sədərək rayonu (3,0% və ya 1.7498 milyon manat), informasiya və rabitədə ilk sırada Naxçıvan şəhəri (51,6% və ya 31.1614 milyon manat) və son sırada Sədərək rayonu (1,8% və ya 1.0857 milyon manat), ticarət, nəqliyyat vasitələrinin təmirində ilk sırada Naxçıvan şəhəri (44,6% və ya 250.3161 milyon manat) və son sırada Sədərək rayonu (2,6% və ya

14.6876 milyon manat) yer almışdır.

Azərbaycanda mövcud işçi qüvvəsinin sayının təhlilinə əsaslanaraq qeyd etmək olar ki, 2019-cu illə müqayisədə 2023-cü ildə işçi qüvvəsinin sayında 4,24% və ya 212,064 min nəfər artım olmuşdur. Müqayisə dövründə respublika üzrə orta iş qüvvəsi sayının artımını üstələyən regionlara Dağlıq Şivan İR (+6,13%), Gəncə-Daşkəsən İR (+4,72%), Qarabağ İR (+4,93%), Quba-Xaçmaz İR (+5,66%), Mərkəzi Aran İR (+4,39%), Mil-Muğan İR (+5,09%), Şərqi Zəngəzur İR (+4,99%) və Şirvan-Salyan İR (+5,39%) aiddir. Qeyd edilən regionlarda işçi qüvvəsinin artmasının əsas səbəbi dövlətin regionların sosial-iqtisadi inkişaf proqramlarında nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi nəticəsində yeni iş yerlərinin yaradılması ilə əlaqələndirilə bilər.




**Qrafik 3. İİN-nin bəzi ölkələr üzrə müqayisəsi**

Həyat səviyyəsinin qiymətləndirilməsi ölkədə müvafiq göstəricilər sistemi əsasında həyata keçirilir. 2023-cü ildə aparılmış hesablamalar əsasında 193 ölkənin insan inkişafı indeksinin reytinq sırası verilmişdir. Bu hesablamaya görə ilk onluqda İsveçrə - 1, Norveç - 2, İslandiya - 3, Qonkong - 4, İsveç - 5, Danimarka - 5, Almaniya - 7, İrlandiya - 7, Sinqapur - 9, Avstraliya - 10 yer almışlar. İlk onluqdakı və keçmiş sovetlər ittifaqı ölkələrinin reytinq sırası aşağıdakı qrafikdə verilmişdir.

Məlumatların təhlilindən aydın olur ki, müqayisə edilən illərdə (2021-2022-ci il) Sinqapurdan başlayaraq sola doğru ölkələrin insan inkişaf indeksi üzrə topladığı ballarda azalma olmuş, həmçinin reytinq sırasında da Sinqapurda 3 pillə irəliləmə, Avstraliyada 5 pillə, Azərbaycanda isə 2 pillə irəliləmə olmuş və 91-ci sıradan ölkəmiz 89-cu sıraya keçmişdir. Bu göstəriciyə əsasən onu qeyd etmək olar ki, ölkəmizdə insan inkişaf indeksində 0,015 bal yüksəlmənin olması əhalinin həyat səviyyəsinin yaxşılaşmasına dəlalət edir. Bütün bunlar da dövlətin əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması istiqamətdə apardığı məqsədyönlü tədbirlər nəticəsində əldə edilir[19].

Aparılan araşdırmalardan belə nəticəyə gəlmək olar ki, Naxçıvan MR-da sosial iqtisadi inkişafı təmin etmək üçün aşağıdakıların həyata keçirilməsi məqsədəuyğun olar:

- regionda mövcud xammal və işçi qüvvəsi potensialından sənayenin təşkilində səmərəli istifadə edilməli;
- infrastrukturun daha da təkmilləşdirilməsi, yerli tələbat və ixrac imkanlarını nəzərə almaqla sənaye müəssisələri yaradılmaqla investisiya və innovasiya fəallığı sənaye sahəsində artırılmalı, yerli və xarici investisiyalar aqrar sənaye sektoruna cəlb edilməklə sığorta sisteminin kənd təsərrüfatında inkişafını təmin etməli, üzümçülüyün bərpasına, qiymətli balıq növləri və balıq məhsullarının istehsalına dövlət dəstəyi gücləndirilməli və istehsal olunan məhsullar yerli brend adı ilə xarici bazarlara çıxarılmalı və tanıdılmalı;
- ixracyönümlü məhsul istehsal edən sahibkarlıq subyektlərinin fəaliyyəti stimullaşdırılmalı, onların müxtəlif kanallar vasitəsilə xarici bazarlara çıxış imkanları asanlaşdırılmalı;
- beynəlxalq praktikaya müvafiq olaraq alternativ enerji mənbələrindən istifadənin texniki-iqtisadi əsaslandırılmasında enerjinin dəyəri ənənəvi enerji mənbəyinin mövcud qiyməti ilə deyil, real qiyməti ilə müqayisə olunmalı, elektrik enerjisi istehsalına verilən subsidiyalaşdırma mexanizmi alternativ enerji mənbələrinə də şamil olunmalı;
- əhalinin sosial cəhətdən ən aşağı təminatlı təbəqələrinə tibbi

[19] AR DSK. Azərbaycanın regionları. Statistik məcmuə. Bakı, -2023, -865 s.

yardımın göstərilməsi ilə bağlı tədbirlər sistemini həyata keçirməklə sosial müavinətin səmərəliliyinin artırılması, ünvanlı sosial yardım formalarının daha geniş tətbiqi;

- muxtar respublikada sosial infrastrukturun formalaşdırılması və inkişafının dövlətin sosial siyasətinə uyğun tənzimlənməsi.

Dissertasiyanın **“Regional inkişafın təkmilləşdirilməsi və əhalinin həyat səviyyəsinin yüksəldilməsi” adlanan III fəslində** Naxçıvan MR-da ÜDM-in sərbəst dəyişənlərdən asılılığı modeli, regionların sosial-iqtisadi inkişafının investisiya təminatının təkmilləşdirilməsi mexanizmləri və əhalinin həyat səviyyəsinin yüksəldilməsi istiqamətləri məsələləri tədqiqata cəlb olunur.

Muxtar respublikada ÜDM-in həcminin (asılı dəyişən) iqtisadiyyatda məşğul olanların sayı, muzdla işləyənlərin sayı, işçilərin orta aylıq nominal əmək haqqı və əhalinin nominal gəlirlərindən (sərbəst dəyişənlər) asılılığını ifadə edən və artımın proqnoz qiymətinin hesablanması məqsədilə çoxfaktorlu reqressiya modelinin qurulması üçün verilənlər bazası yaradılmalıdır.

Əvvəlcədən müəyyənləşdirilmiş dövr ərzindəki N (i=1,2,…,N) illərin statistik məlumatları əsasında qeyd edilən sərbəst dəyişənlərin kəmiyyət götəricisindən ibarət regionda ÜDM-in həcminin artımını əks etdirən məlumatlar aşağıdakı cədvəldə verilmişdir.

Baxılan hal üçün m=4, N=10 olduğu üçün (1) reqressiya modeli belə yazılır:

$$y_i = a_0 + a_1x_{i1} + a_2x_{i2} + a_3x_{i3} + a_4x_{i4}, \ (i=\overline{1,11}). \qquad (1)$$

$a_0, a_1, a_2, a_3, a_4$ və statistik kriteriya əmsalları “Visual Studio Code” proqramı tərtibi ilə hesablanmış və (2) modeli verilmişdir:

$$UDM=-10397.3335 + 21.4251\ Imos + 23.8103\ Imis - \\ -4.3627\ Iioəh + 4.1067\ Əng. \qquad (2)$$

Hesabatdan əldə edilmiş modelin adekvatlıq göstəricisi olan Darbin-Uotson kriteriyasının α=0.01 (1%) halında $d_l$=0,49 və $d_u$=1,7 statistik kəmiyyətinin, α=0,05 (5%) halında $d_l$=0,69 və $d_u$=1,97 kəmiyyətinin əhəmiyyətliliyi səviyyəsində təyin edilmiş və modeldə avtokorrelyasiya qalığının üç fərziyyəsi yoxlanılmışdır.

**Cədvəl 1.**

**Muxtar respublikada ÜDM-in həcmi və üç sərbəst dəyişənin göstəriciləri**

| Sınaqlar | İllər | Ümumi daxili məhsul (UDM). Y. milyon manat | İqtisadiyyatda məşğul olanların sayı (Imos). $X_1$. min nəfər | İqtisadiy-yatda müzdla işləyənlə-rin sayı (Imis). $X_2$ min nəfər | İqtisadiyyatda işləyənlə-rin orta aylıq nominal əmək haqqı (Iioəh). $X_3$. manat | Əhalinin nominal gəlirləri (Əng). $X_4$. milyon manat |
|---|---|---|---|---|---|---|
| 1 | 2014 | 2391.0042 | 228.9 | 94.8 | 391.5 | 1775.742 |
| 2 | 2015 | 2467.4224 | 231.0 | 95.4 | 399.5 | 1804.179 |
| 3 | 2016 | 2582.3614 | 233.5 | 96.4 | 413.2 | 1825.592 |
| 4 | 2017 | 2701.6630 | 235.5 | 97.0 | 420.1 | 1845.812 |
| 5 | 2018 | 2773.0205 | 237.4 | 97.4 | 433.0 | 1866.096 |
| 6 | 2019 | 2839.6500 | 248.9 | 98.1 | 484.8 | 1890.355 |
| 7 | 2020 | 2907.8105 | 251.3 | 98.5 | 535.8 | 1913.244 |
| 8 | 2021 | 3016.3150 | 253.4 | 99.4 | 553.6 | 1934.289 |
| 9 | 2022 | 2990.1301 | 256.0 | 110.3 | 611.4 | 1945.895 |
| 10 | 2023 | 1552.868 | 257.2 | 59.6 | 689.0 | 1957.571 |

Tədqiqatda qeyd edilir ki, idarəetmə səviyyələrinin əlaqəsi investisiyaların tənzimlənməsinə, iqtisadi vəziyyət nəzərə alınmaqla müəyyən bir tarazlığın yaradılmasına yönəlmiş milli investisiya siyasəti ilə müəyyən edilir. Dövlət investisiya siyasətinin məqsədi iqtisadiyyatın prioritet sektorlarında mal, iş və xidmət istehsalının sürətli inkişafını təmin etmək üçün əlverişli investisiya mühiti yaratmaqdır. Regional səviyyədə investisiyaların idarə edilməsi prosesi təkcə ölkə siyasətinin istiqamətindən asılı deyil, həm də milli xüsusiyyətlər, ərazinin yerləşdiyi məkan, bölgənin istehsal potensialı, təbii və iqlim şəraiti, xarici investisiya üçün cəlbediciliyin açıqlığı və s. kimi amillərlə müəyyən edilir. Belə ki, mezosəviyyədə investisiya fəaliyyətinin inkişafı özünü maliyyələşdirmənin təmin edilməsinə, sahibkarlığın inkişafına, sosial-iqtisadi şəraitin yaxşılaşdırılmasına və son nəticədə isə əhalinin həyat səviyyəsinin yaxşılaşdırılmasına yönəldilməlidir.

Göstərilir ki, dövlət investisiya siyasəti ölkənin sosial iqtisadi inkişaf məqsədlərinə uyğun olaraq daha əlverişli investisiya mühitinin təmin edilməsi məqsədi ilə ümumi biznes şəraitinin yaxşılaşdırılması, xüsusi mülkiyyətin qorunması və korporativ idarəetmənin təkmilləşdirilməsi, bütün investorlar üçün azad rəqabət mühitinin yaradılması, sabit normativ-hüquqi rejimin təmin edilməsi və iqtisadi

sabitliyin qorunması prinsiplərinə əsaslanaraq aşağıdakı prioritetlərin həyata keçirilməsini nəzərdə tutur:

- infrastruktur sahələrinin inkişafı və onların obyektlərinin davamlı istismarının təmin edilməsi;
- regionların tarazlı və inkluziv inkişafının təmin edilməsi;
- insan kapitalının davamlı inkişaf etdirilməsi və sosial təminatın gücləndirilməsi. Təhlil göstərir ki, 2018-ci ilə nisbətən 2023-cü ildə Azərbaycan Respublikasında iqtisadiyyata yönəldilmiş investisiyaların həcmində 3258,1 milyon manat və ya 12,6% artım müşahidə edilmişdir. Bu göstəricidə artım Naxçıvan MR-da da olmuş və ölkəyə yatırılmış investisiyanın xüsusi çəkisinin 5,9%-ni təşkil etmişdir.

Apardığımız araşdırmalar göstərir ki, iqtisadi təhlilin elmi və metodoloji alətlərindən istifadə edərək invetisiyanın mövcud vəziyyətini əks etdirən səbəbləri ətraflı tədqiq etməklə elmi cəhətdən əsaslandırılmış təkliflər planı hazırlanmalı və gələcəkdə tətbiq imkanları müəyyən edilməlidir. Bu baxımdan, investisiya qoyuluşunun azaldılmasının mənfi təsiri ölkədə, muxtar respublikada və digər iqtisadi rayonlarda da investisiya fəaliyyətini, həm də iqtisadiyyatın fərqli sahələrində investisiya qoyuluşunun idarəetmə sistemini hərtərəfli xarakterizə edə bilər.

Hal-hazırda ölkələrin sosial-iqtisadi inkişafını qiymətləndirmək üçün bir çox metodlardan istifadə edilir: - həyat keyfiyyəti kompleks bir göstərici kimi; - insan inkişafı indeksi; - dünya rəqabətlilik indeksi; - regionların inkişafının səmərəliliyinin qiymətləndirilməsi; - regionların sosial-iqtisadi inkişafının hərtərəfli qiymətləndirilməsi. Aparılan təhlil və araşdırmalar göstərir ki, həyat səviyyəsinin yüksəldilməsi sosial-iqtisadi inkişafın idarə olunmasında əsas meyar olub, bütün iqtisadi inkişafı istiqamətləndirən son nəticədir. Həyat səviyyəsinin durmadan yüksəldilməsi bu baxımdan iqtisadi qanunlar sisteminin fəaliyyət mexanizminin xüsusiyyətlərini ayrı-ayrı, idarə səviyyəsində istifadəsi mümkündür.

Fikrimizcə, ölkədə həyata keçirilən məqsədyönlü sosial-iqtisadi siyasət muxtar respublikada iqtisadi artımın kəmiyyət və keyfiyyətcə artımına səbəb olmaqla, əhalinin maddi və mənəvi rifah halının yüksəlməsinə şərait yaradacaqdır.

**Dissertasiyada aparılan tədqiqatda əsasən aşağıdakı nəticəyə gəlinib və müvafiq təkliflər irəli sürülüb.**

Naxçıvan Muxtar Respublikası timsalında regionların sosial-iqtisadi inkişafı və əhalinin həyat səviyyəsinin yüksəldilməsi problemlərinin həlli istiqamətində aparılan elmi araşdırmanın nəticələri:

1. Naxçıvan MR-nın regionlarının sosial-iqtisadi inkişafının və əhalinin həyat səviyyələrinin yüksəldilməsi istiqamətlərinin konseptual əsasları araşdırılmış və aşağıdakı nəticələr əldə edilmişdir:

- regionların sosial-iqtisadi inkişafının nəzəri-metodoloji əsaslarının tədqiqi nəticəsində regional inkişafın mahiyyət və xüsusiyyətlərinə kompleks yanaşmalar nəticəsində müəyyən edilmişdir ki, regional inkişafın əsas xüsusiyyəti region əhalisinin gəlir və istehlakının artırılması, əmək və məişət şəraitinin yaxşılaşdırılması, iş vaxtı və asudə vaxtının düzgün bölüşdürülməsi, mədəni və təhsil səviyyəsinin yüksəldilməsi, sağlamlıq problemlərinin aradan qaldırılması kimi məsələlərin həyata keçirilməsini şərtləndirir.

2. Regional inkişafın formalaşmasına təsir edən amillər araşdırılaraq belə nəticəyə gəlinir ki, muxtar respublika rayonlarının sosial-iqtisadi inkişafının formalaşmasına təbii və coğrafi mühit amilləri: - relyef, təbii iqlim şəraiti, coğrafi ərazi, yeraltı və yerüstü sərvətlərin mövcudluğu və onlardan istifadə səviyyəsi; demoqrafik amillər: - əhalinin məşğulluğu, iqtisadi fəal əhali; təsərrüfat sahələrinin yerləşdirilməsi: - kənd təsərrüfatı və sənaye sahələrinin regionlar üzrə yerləşdirilməsi, onların inkişafı, infrastruktur (istehsal, bazar və sosial) sahələrinin inkişaf səviyyəsi, turizmin vəziyyəti və inkişafı; hökumətin həyata keçirdiyi iqtisadi siyasət mühüm rol oynayır.

3. Mövcud şərait və amillər nöqteyi nəzərindən muxtar respublikanın sosial-iqtisadi potensialı və regionlarda əhalinin həyat səviyyəsi qiymətləndirilərək göstərilir ki, ölkədə və muxtar respublikada 2004-cü ildən qəbul edilən silsiləli Dövlət Proqramları (Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramları), Strateji Yol Xəritələri və sahibkarlığın inkişafını stimullaşdıran digər normativ hüquqi aktlar və onların əsasında regionların inkişafına ayrılan investisiyalar rayonlarda sosial-iqtisadi potensialı inkişaf etdirərək

əhalinin həyat səviyyəsini əvvəlki illərə nisbətən xeyli yaxşılaşdırmışdır.

4. İstehsalın kompleks inkişaf göstəriciləri və sosial sferanın mövcud durumunun təhlili və qiymətləndirilməsi belə nəticə çıxarmağa imkan verir ki, muxtar respublikanın sosial-iqtisadi inkişafının təmin edilməsi istiqamətində hökumət tərəfindən aparılmış məqsədyönlü iqtisadi siyasət bölgələrdə istər sənaye, istərsə də kənd təsərrüfatı məhsullarının istehsalını ildən ilə artırmış və əhalinin pul gəlirlərinin artması həyat səviyyəsinin yüksəlməsinə təsir etmişdir.

5. Muxtar respublika rayonlarında sosial-iqtisadi inkişafa və əhalinin həyat səviyyəsinin yüksəldilməsinə təsir edən xarakterik problemlər aşkarlanmış və perspektiv dövr üçün onların həlli istiqamətləri aşağıdakı kimi müəyyən edilmişdir. Göstərilir ki, mikro, makro və mezoiqtisadi səviyyədə regional iqtisadiyyat aşağıdakı problemlərlə üzləşməkdədir: aqrar sənaye komplekslərinin yaradılması və inkişafı, iqtisadiyyatın difersifikasiyası, innovasiya yönümlü sahibkarlığın yaradılması və inkişafı, muxtar respublika regionlarının tarazlı inkişafı, iqtisadi fəal əhalinin mobilliyinin artırılması, işsizliyin azaldılması, məşğulluğun təmin olunması, mövcud təbii və əmək potensialından səmərəli istifadə, elm ilə istehsalat arasında əlaqə yaradılması, elm və texnikanın son nailiyyətlərinin istehsala tətbiqi, muxtar respublikada kiçik və orta sahibkarlığın innovasiya yönümdə inkişafı, istehsal sahələrinin infrastruktur təminatı.

Tədqiqatda həmin prioritet problemlərin həlli istiqamətləri göstərilərək, qeyd edilir ki, muxtar respublika regionlarına xarici və yerli şirkətlər tərəfindən investisiya yönəldilməsinə ciddi ehtiyac vardır. Bu zaman: - regionun investisiya cəlbediciliyini artırmaq, muxtar respublika ərazisində əlverişli investisiya mühiti yaratmaq xüsusilə əhəmiyyətlidir; - muxtar respublikada sahibkarlığın inkişafına xidmət edən innovasiya infrastrukturunun yaradılması istiqamətində iş aparmalı və sahibkar subyektləri rəqabətədavamlı, ixracyönümlü innovativ məhsul istehsalına sövq etməli, sahibkarların xarici bazara çıxışı sadələşdirilməlidir; - regionlarda vaxtı ilə yerli xammallar hesabına fəaliyyət göstərmiş ənənəvi istehsal sahələrinin (tikinti, inşaat materialları, aqrar sənaye sahələri, heyvandarlıq

kompleksləri, nohur balıqçılığı, xalçaçılıq və s.) dövlət-özəl sektor əməkdaşlığı əsasında bərpa və yenidən qurulması üçün aid dövlət orqanları yeni-yeni layihələr hazırlamalıdır; - daxili bazarda yerli istehsalın xüsusi çəkisini artırmaq məqsədilə xaricdən gətirilən anoloji məhsullara proteksionizm gömrük siyasəti tətbiq etmək əsasında yerli istehsal məhsullarının rəqabət qabiliyyətini qorumalı, bu zaman azad rəqabət mühiti yaratmaqla, inhisarçılığın qarşısı ciddi surətdə alınmalıdır; - muxtar respublikada sahibkarlığın inkişafı üçün əlverişli kreditləşmə şəbəkəsi yaratmalı və onun hüquqi bazasını təkmilləşdirməklə, sahibkarlığın maliyyə təminatının artırılması üçün alternativ mənbələr aktivləşdirilməlidir; - muxtar respublikada yeni iş yerlərinin açılması dəstəklənməli, məşğulluq səviyyəsinin daha da artırılması nəzarətdə saxlanılmalı və qeyri-məşğul əhali peşə yönümünə istiqamətləndirilməlidir.

6. Muxtar respublika iqtisadiyyatının vacib sahəsi olan kənd təsərrüfatında innovasiyayönümlü yeni islahatlar aparılmalı və oraya yeni texnologiyaların tətbiqi artırılmalıdır;

7. Muxtar respublikada turizm fəaliyyəti stimullaşdırılmalı və bu sahəyə investisiya cəlb etməklə, turizm sektorunun yüksək ixtisaslı kadrlarla təminatının artırılması üzrə tədbirlər görülməlidir.

8. Naxçıvan MR-da ÜDM-in artımına müsbət və mənfi təsirli sərbəst dəyişənləri əks etdirən çoxamilli reqressiya modeli işlənilmiş, modeldə avtokorelyasiyanın olub-olmaması hipotezi araşdırılmış və approksimasiyası geniş verilmişdir.

Fikrimizcə, yuxarıda irəli sürülmüş tövsiyə və təkliflərin həyata keçirilməsi gələcəkdə muxtar respublikada sosial-iqtisadi inkişafın təmin olunması və əhalinin həyat səviyyəsinin yüksəldilməsində mühüm rol oynaya bilər.

**Dissertasiya işinin əsas məzmunu müəllifin aşağıdakı monoqrafiya və məqalələrində nəşr olunmuşdur:**


1. Allahverdiyeva, M.Ə. Müasir Azərbaycanda yoxsulluq həddi və onun dünya ölkələri ilə müqayisəli xarakteristikası // –Bakı, "Kiçik biznes və sahibkarlıq fəaliyyətinin inkişaf problemləri". Məqalələr toplusu, –2004, s.99-104.
2. Allahverdiyeva, M.Ə. Azərbaycanda yoxsulluq problemi və onun

azaldılması istiqamətləri.// –Naxçıvan Dövlət Universiteti, “Xəbərlər”, –2005, s.135-137.
3. Allahverdiyeva, M.Ə.Azərbaycanda gender siyasəti və onun inkişaf istiqamətləri // – Naxçıvan, “Regionun sosial-iqtisadi inkişaf problemləri” Konfrans materialları. Məqalələr toplusu. –2006, s.75-78.
4. Allahverdiyeva, M.Ə.Azərbaycanda ətraf mühit problemlərinin bəzi məsələləri və onların həlli yolları // –Naxçıvan, Naxçıvan MR-də aqrar islahatların gedişi və sosial-iqtisadi perspektivləri. Elmi Konfransın materialları, –2008, s.110-113.
5. Allahverdiyeva, M.Ə. Qloballaşma və dünya ölkələrinin yoxsulluq problemləri // – Beynəlxalq iqtisadi əlaqələrin inkişafında regionların rolu və əhəmiyyəti. Beynəlxalq Elmi Konfransın materialları. Naxçıvan, Qeyrət nəşriyyatı, –2009, s.100-101.
6. Allahverdiyeva, M.Ə. Yoxsulluqla mübarizədə beynəlxalq təşkilatların rolu //–Naxçıvan. NDU “Elmi əsərlər” Naxçıvan, Qeyrət nəşriyyatı, №2(34), –2011, s.41-44.
7. Allahverdiyeva, M.Ə. Naxçıvan MR-də sahibkarlığın inkişafına dövlət dəstəyi.// –Naxçıvan Dövlət Universiteti, Elmi əsərlər, Naxçıvan. Qeyrət nəşriyyatı, №2(47), –2012, s.266-269.
8. Allahverdiyeva, M.Ə. Regional proqramlarda həyat səviyyəsinin yüksəldilməsi istiqamətləri// –Bakı, Doktorantlar və gənc tədqiqatçıların XVII respublikasının materialları, –2013, s.203-206.
9. Allahverdiyeva, M.Ə.Regionların sosial-iqtisadi inkişafının investisiya təminatı.// –Naxçıvan, Elmi əsərlər, Qeyrət nəşriyyatı,-2014, №2(58), s.183-186.
10. Allahverdiyeva, M.Ə. Naxçıvan MR-də inkişafın prioritet istiqamətləri.// –Naxçıvan, Elmi əsərlər, Qeyrət nəşriyyatı, 2014, №6(62), s.139-145.
11. Allahverdiyeva, M.Ə. Naxçıvan MR-də məşğulluğun artırılmasında innovasiyaların rolu. // –Naxçıvan. Naxçıvan MR iqtisadiyyatının innovativ inkişaf istiqamətləri, Elmi praktik konfrans materialları, 23.11.2014, Naxçıvan, –2015, s.42-46.
12. Allahverdiyeva, M.Ə. Qloballaşma şəraitində Naxçıvan MR-də

kənd təsərrüfatının inkişafı // –Naxçıvan.Elmi əsərlər, Qeyrət nəşriyyatı, –2015, №2(68), –s.206-209.
13. Allahverdiyeva, M.Ə. Torpaq islahatları və regionların sosial-iqtisadi inkişafı. // – Naxçıvan, H.Əliyev və müasirləşən Naxçıvan iqtisadiyyatı, Elmi praktiki konfrans, Naxçıvan: –2015, s. 73-77.
14. Allahverdiyeva, M.Ə. Naxçıvan Muxtar Respublikası surətli inkişaf yolunda.// Azərbaycanın tarixi coğrafiyasının aktual problemləri (04 aprel 2015-ci ildə keçrilən respublika konfransının materialları), Naxçıvan: –2015, s.153-156.
15. Allahverdiyeva, M.Ə. Heydər Əliyev və Naxçıvan MR-də sahibkarlığın inkişaf xüsusiyyətləri. // H.Əliyev və müasirləşən Naxçıvan iqtisadiyyatı. NDU-Beynəlxalq Konfransın materialları, Qeyrət nəşriyyatı, –2016, s. 128-130.
16. Allahverdiyeva, M.Ə. Naxçıvan MR-də İKT-nin inkişafı.// NDU-Elmi əsərlər. Qeyrət nəşriyyatı, –2016, № 3 (77), s.54-58.
17. Allahverdiyeva, M.A. Successful development of agricultural sector in Nakhchivan Autonomous Respublic.// Science and world. –2017, №2 (42).Vol.Ii, p.17 -19.
18. Аллахвердиева, М.А. Устойчивое социально-экономическое развитие Нахичеванской Автономной Республики. //Научная дискуссия: вопросы экономики и управления. //-Сборник статей по материалам LXII международной научно-практицеской конференции.// Москва: № 5(61), –2017, с-11-16
19. Аллахвердиева, М.А. Развитие туризма проводимая миграционная политика в Нахичеванской Автономной Республики. // Международный научный журнал, Москва: №1,- 2017, с. 29 -32.
20. Allahverdiyeva, M.Ə. Naxçıvan MR-da sosial durumun mövcud vəziyyəti. // Naxçıvan Dövlət Universiteti, Qeyrət nəşriyyatı. Naxçıvan: –2017, №02(83), s.132 -134.
21. Аллахвердиева M.A. Naxçıvan Muxtar Respublikası regionlarının inkişafında sənayenin rolu.// Naxçıvan Universiteti, –2017, s. 47.-50.
22. Allahverdiyeva, M.Ə. İnnovasiya sahibkarlığı sahəsində

marketinqin təşkili.// Naxçıvan Universiteti , Nuh nəşr. Naxçıvan: –2018, № 01(8), s. 32-37.
23. Allahverdiyeva, M.Ə. Qadın sahibkarlığının inkişafında yeni meyllər: problemlər təşəbbüslər və uğurlar. // Naxçıvan Dövlət Universiteti, Qeyrət nəşriyyatı, –2018, № 02(91), s. 59-62.
24. Allahverdiyeva, M.Ə. Əhalinin həyat səviyyəsinin yüksəldilməsində aqrar sahənin rolu. // Aqrar sahənin inkişaf istiqamətləri mövzusunda Respublika Elmi Konfransının materialları. Naxçıvan: – 2019, s. 58-61.
25. Allahverdiyeva, M.Ə. Naxçıvan MR-da istehsal sahələrinin mövcud durumu. // Naxçıvan Universiteti Elmi əsərlər –2019, № 3 (14), s. 43-46.
26. Allahverdiyeva, M.Ə. Naxçıvan-Türkiyə iqtisadi əlaqələrinin müasir vəziyyəti və əhalinin həyat səviyyəsinin yüksəldilməsində onun rolu. // Naxçıvan-Türkiyə diplomotik əlaqələri yeni müstəvidə. Beynəlxalq elmi konfrans. Naxçıvan: – 2019, s.120-122.
27. Allahverdiyeva, M.Ə. Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafında xarici iqtisadi əlaqələrin rolu // "İqtisadi inkişafın Naxçıvan modeli və mühasibat uçotunun aktual problemləri" Elmi konfransın materialları, Naxçıvan: – 2020, s.141 –145.
28. Allahverdiyeva, M.Ə. Qadın sahibkarlığının inkişafında problemlər, təşəbbüslər və perspektivlər.// Umteb International Congress on Vocational & Technıcal Sciences-X IKSAD PUBLICATIONS-2020, s. 367- 371.
29. Allahverdiyeva, M.Ə. Dövlətin apardığı sosial-iqtisadi siyasətin əhalinin həyat keyfiyyətinin yaxşılaşdırılmasına təsiri// – Naxçıvan Universiteti "Naxçıvan mədəniyyətlərinin qovuşduğu məkan" (Beynəlxalq elmi konfrans materialları) 22-23. 10. 2020 –Naxçıvan, s. 46-50.
30. Allahverdiyeva, M.Ə. Sağlam ekoloji mühitin yaradılması bəşəriyyətin gələcəyinə xidmət edir // Naxçıvan Universiteti Elmi əsərlər, –2020, № 4, s. 31-34.
31. Allahverdiyeva, M.Ə. Sahibkalıq fəaliyyətində marketinq qərarlarının qəbulu // Naxçıvan Universiteti Elmi əsərlər.

Naxçıvan: –2021 № 1 2021. s. 41-47.
32. Allahverdiyeva, M.Ə. Müasir şəraitdə maliyyə vasitəçiliyi sisteminin təkmilləşdirilməsi // Naxçıvan Universiteti Elmi əsərlər (Respublika elmi-praktiki konfransın materialları) 2021 – Naxçıvan, s, 215-217.
33. Allahverdiyeva, M.Ə. Управление производством и уровнем жизни в сельском хозяйстве наука и мир // Международный научный журнал, №5 (105), –2022, Volgograd, c.59-61.
34. Allahverdiyeva, M.Ə. Maliyyənin idarə edilməsinin müasir vəziyyəti // Naxçıvan Universiteti, –2022 (25) №1.s.38-41.
35. Allahverdiyeva, M.Ə. Naxçıvan Muxtar Respublika iqtisadiyyatında sosial-iqtisadi inkişafın yeni mərhələsi. // Naxçıvan Universiteti "Naxçıvan MR-da sənayenin diversifikasiyası beynəlxalq iqtisadi inteqrasiya amili kimi" (Beynəlxalq elmi konfrans materialları), 2022, –Naxçıvan, s.236-241.
36. Allahverdiyeva, M.Ə. Naxçıvan MR-da İpək Yolu ticarət əlaqələrinin kənd təsərrüfatının inkişafina təsiri. // Naxçıvan Universiteti "Beynəlxalq İpək Yolu və Naxçıvan" (Beynəlxalq elmi konfrans materialları) 2022, –Naxçıvan, s.220-225.
37. Allahverdiyeva, M.Ə. Əhalinin məşğulluğunun təmin olunması və həyat səviyyəsinin yüksəldilməsi iqtisadi siyasətin prioriteti kimi // Naxçıvan Muxtar Respublikasının gələcək iqtisadi inkişaf prioritetləri. (Respublika konfransının materialları). Naxçıvan: –2022, s.111-116.
38. Allahverdiyeva, M.Ə. Marketinq sahəsində koryer, insan kapitalı və davamlı inkişaf. İqtisadi idarəetmənin müasir xüsusiyyətləri //Nəzəri yanaşmalar, sosial aspektlər kollektiv monoqrafiya Naxçıvan – 2022. s.110-128.
39. Allahverdiyeva, M.Ə. Heydər Əliyev- Sosial siyasət və sosial rifah //"Heydər Əliyev və milli dövlətçilik məsələlər" Respublika elmi konfrans materialları. Naxçıvan-25-26 may 2023.
40. Allahverdiyeva, M.Ə. Ртазвиие технопарков как основа социального благополучия SCIENCE AND WORLD International scientific journal № 11 (123), 2023 c.21-24.
41. Allahverdiyeva, M.Ə. Naxçıvan Muxtar Respublikasının sosial-

iqtisdi inkişafına innovasiyanın təsiri. //International mediterranean scientific research congress 2023. s. 48-57.

42. Allahverdiyeva, M.Ə. Sosial-iqtisadi inkişafda informasiya konsaltinq xidmətləri marketinqindən istifadə. Elmi əsərlər. Naxçıvan Universiteti, 2023, № 04 (31). s.47-52.
43. Allahverdiyeva, M.Ə. Социально-экономическое развитие Иахчыванской Автономной Республики SCIENCE AND WORLD International scientific journal № 1 (125), c.2024. 41-46.
44. Allahverdiyeva, M.Ə. Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafında yeni mərhələ Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafında yeni mərhələ. //Uluslararası sosyal bilimlər və inovasyon kongresi 17-18 mart 2024 Şanlıurfa. s.294-303.
45. Allahverdiyeva, M.Ə. Qərbi Azərbaycan-dayanıqlı sosial-iqtisadi inkişaf. //Uluslararası Uludağ bilimsəl araşdırmalar kongresi 27-28 iyul Bursa 2024. s.1057-1065.
46. Allahverdiyeva, M.Ə. Situation, problems and perspectives of western azerbaijan economy. //Congress id international topkapi congress ivdate and place September18-20, 2024 – Istanbul. s.9-12.

Dissertasiyanın müdafiəsi 14 fevral 2025-ci il tarixində saat $11^{00}$ -da Naxçıvan Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən BFD 4.24 Birdəfəlik Dissertasiya şurasının iclasında keçiriləcəkdir.

Ünvan: Azərbaycan Respublikası, Naxçıvan Muxtar Respublikası, Naxçıvan şəhəri, Universitet şəhərciyi, AZ7012, Naxçıvan Dövlət Universitetinin əsas binası, I mərtəbə.

Dissertasiya ilə Naxçıvan Dövlət Universitetinin elmi kitabxanasında tanış olmaq (elmi müəssisə və təşkilatın, ali təhsil müəssisəsinin adı) mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Naxçıvan Dövlət Universitetinin rəsmi internet saytında (www.ndu.edu.az) yerləşdirilmişdir.

Avtoreferat 10 yanvar 2025-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 09.01.2025
Kağızın formatı: 60x90 1/16
Həcm: 42 831
Tiraj:100